**Aytən Faris qızı Əbdürrəhmanova**

**UOT:338.45; JEL: L19.**

# İnnovasiya sahibkarlığı və onun qiymətləndirilməsinə sistemli yanaşma

***Xülasə***

*Məqalədə innovasiya sahibkarlığının genişləndirilməsini şərtləşdirən vəziyyət açıqlanmış, intellektual kapitalın növləri, onların əhatə dairəsi, innovasiya sahibkarlığının sistemli yanaşmaya əsaslanan təkmil tərifi formalaşdırılmış onun modelləri, inkişafına təminat yaradan amilləri, fəaliyyətinin aktivləşdirilməsi mexanizmləri müəllifin fərdi yanaşması əsasında sxem şəklində əks etdirilmişdir. İnnovasiya fəaliyyətinin qiymətləndirilməsi üzrə indikatorlar sistemləşdirilmiş və onlardan istifadə imkanlarına dair tövsiyələr verilmişdir.*

***Açar sözlər:*** *innovasiya sahibkarlığı, intellektual kapital, modellər, mexanizmlər, indikatorlar.*

## Giriş

Bazar iqtisadiyyatının geniş vüsat aldığı şəraitdə Azərbaycanda sahibkarlığın genişləndirilməsi ölkədə həyata keçirilən iqtisadi inkişaf strategiyasının üzvü tərkib hissəsini təşkil edir. Sahibkarlığa dövlətin dəstəyinin gücləndirilməsi nəticəsində son 15 ildə sahibkarlıq subyektlərinin sayı 4,5 dəfə artmış və onlar qeyri-neft sənaye sektorunun sürətli inkişafına öz tövhəsiini verməkdədir. Həmin fəaliyyət növünün inkişafı ÜDM-də özəl sektorun payının 85%-də məşğulluqda isə - 78%-zə çatmasına imkan vermişdir. Əldə edilən nailiyyətlərə baxmayaraq sahibkarlıq subyektlərinin innovasiya aktivliyi beynəlxalq təcrübədə nəzərdə tutulan astana həddindən kəskin dərəcədə aşağıdır və bunun nəticəsidir ki, onların ixrac inkanları qənaətbəxş deyildir. Hər il çoxsaylı kiçik və orta statuslu (o cümlədən xarici və müştərək) müəssisələr rəqabət mübarizəsinə tab gətirə bilmədiyindən ləğv edilirlər. Bütün bu geriliyin aradan qaldırılması üçün kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsində yaxın və uzun müddətli dövrdə sahibkarlıq fəaliyyətinin əhatə dairəsinin genişləndirilməsi nəticəsində səmərəli əsaslı modeldən innovasiya əsaslı modelə keçidin vacibliyi qeyd edilmişdir [1]. Deməli, qarşıda duran başlıca məqsəd innovasiya sahibkarlığını inkişaf etdirməkdir. Bunun üçün innovasiya sahibkarlığının mahiyyətini dəqiqləşdirmək, sahibkarın şəxsi keyfiyyətini xarakterizə edən əlamətləri, innovasiya sahibkarlığlının inkişafı üçün mexanizmləri, amillləri, qiymətləndirmə indikatorlarını sistemləşdirmək məqsədə uyğun olardı.

## İntellektual kapital innovasiya sahibkarlığının bazisidir

İntellektual kapital innovasiya sahibkarlığının təşkili və idarə edilməsinin bazisini özündə ehtiva edir və onlardan səmərəli istifadə isə - həmin fəaliyyətin davamlı inkişafına təminat yaradır. Mövcud iqtisadi ədəbiyyatlarda [4; 5;6;7] intellektul kapitalın bir-birini tamamlayan və üzvü əlaqədə olan üç növünü fərqləndirirlər. Onlara: insan kapitalı, təşkilati təyinatlı kapital və istehlak kapitalı daxildir. Onların əhatə dairəsinin təsnifatı aşağıdakı şəkildə əks etdirilmişdir.



*©Aytən Faris qızı Əbdürrəhmanova AMEA İqtisadiyyat İnstitutu, dissertant.E-mail: ayten.abdullayeva1995@mail.ru*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

**İntellektual kapitalın növləri və onların əhatə dairəsi**




**İnnovasiya sahibkarlığının mahiyyəti**

İstənilən innovativ yanaşma özü sahibkarlıq fəaliyyətidir və aşağıdakıları ehtiva edir:

- Yeni ideyaların axtarılması və onların düzgün qiymətləndirilməsi;
- Zəruri resursların (maddi maliyyə, intellektual və sairə) axtarılması;
- Sahibkarlıq subyektinin yaradılması və onun səmərəli idarə edilməsi;
- Yüksək gəlir əldə etmək (əlavə pul qazanmaq);
- Əldə edilən nəticələrdən bəhrələnərək şəxsi tələbatı ödəmək.

Sahibkarlığın mahiyyətini – sahibkarın mühüm şəxsi keyfiyyətini xarakterizə edən aşağıdakı əlamətləri ilə zənginləşdirmək lazımdır:

- Təşəbbüskarlıq;
- Fəaliyyətə mənfi təsir edəcək bütün maneələri təkidlə aradan qaldırmaq;
- Fəaliyyətin istənilən səviyyəsində riskə hazır olmaq;
- Məqsədə çatmağa hədəflənmçək;
- Fəal biznes prosesinə cəlb olunmaq;
- Özfəaliyyətini sistemli şəkildə planlaşdırmaq;
- Müstəqil olaraq öz potensialını nümayiş etdirmək;
- Öz ixtisasını fasiləsiz olaraq artırmaq, başqalarının sahələrini görüb ondan nəticə çıxarmaq, beynəlxalq təcrübədən geniş istifadə etmək.

İqtisadiyyatın innovasiya yolu ilə inkişaf etdirilməsinin nəzəri-metodoloji əsaslarını işləyib hazırlayan məşhur amerika iqtisadçəısı İ.Şumpeter qeyd etmişdir ki, əsl sahibkar – başqalarının etdiklərini təkrar etməməli və mövcud iqtisadi sisteminin dinamikliyini təmin etmək üçün yeniliyin tətbiqi xatirinə bütün ənənələrin əhatə dairəsindən çıxmalıdır. Sahibkarın başlıca məqsədi isə - ixtiraların, səmərələşdirici təkliflərin, bütün növ yenilkiklərin tətbiqi yolu ilə mövcud istehsal sferasında mütərəqqi texnologiyalardan, idarəetmə metodlarından istifadə etməklə inqilabi islahatlar aparmalı, yeni məhsul istehsal edib, onun yeni bazara çıxışını təmin etməlidir. Bir çox [3;4;5;7] iqtisadi ədəbiyyatlarda qeyd edilir ki, innovasiya sahibkarlığı kommersiya məqsədilə texniki-texnoloji, təşkilati-iqtisadi və sosial yeniliklərin yaradılması və istifadəsi prosesidir. Bu fikirlərlə razılaşmaq çətindir, ən azı ona görə ki, innovasiya sahibkarlığının qloballaşma prosdesində əhatə dairəsi ildən ilə genişlənir. Bunu nəzərə alaraq innovasiya sahibkarlığının tərifinin formalaşmasında sistemli yanaşmaya üstünlük verilməlidir. Bizim fikrimizcə, həmin kontekstdə innovasiya sahibkarlığı –

93

© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

intellektual kapitalın, iqtisadi, texniki – texnoloji, siyasi, hüquqi, təşkilati, sosial-psixoloji xarakterli çoxsaylı amillərin təsiri altında formalaşan və inkişaf edən, rəqabətə davamlı (yeni, təkmilləşən) məhsul istehsalına, yüksək keyfiyyətli xidmətə hədəflənən yaradıcılıq prosesidir (idarəetmə fəaliyyətidir).

**İnnovasiya sahibkarlığının modelləri**

İnnovasiya sahibkarlığı təcrübəsində onun üç modelini fərqləndirirlər.

**İnnovasiya prosesinin təşkili üsullarının bazasında yaradılması mümkün olan innovasiya sahibkarlığının ümumi modelləri**






Aparılan araşdırmalar göstərir ki, Azərbaycan reallığında həmin növlərin daxili təşkilatlanma və sazişlərdən istifadə etməklə xarici təşkilatlanmaya (100%-li xarici kapitalı olan firmalar və müştərək müəssisələr) üstünlik verilir. Lakin vençurların köməyi ilə xarici təşkilatlanma innovasiya sahibkarlığının təşkili və idarə edilməsi prosesində öz inkişafının ilkin mərhələlərindədir. Fikrimizcə, vençur maliyyələşdirilməsi sisteminin ölkəmizdə inkişafı ilk növbədə Kiçik və Orta həcmli sahibkarlıq subyektlərini “investisiya aclığı” təhlükəsindən qoruyaraq – onların davamlı inkişafına təminat yarada bilər. Lakin bu zaman sahibkarlığın inkişafına təminat yarada bilən kompleks xarakterli daxili və xarici amillərin təsiri nəzərə alınmalıdır.

**İnnovasiya sahibkarlığının inkişafına təminat yaradan amillər**

Ölkəmizdə innovasiya sahibkarlığının təşkilinin dövrün tələbinə uyğun qənaətbəxş olmadığını nəzərə alaraq inkişafa təminat yaradan amillər qrupunun əhatə dairəsini və təsirini metodiki və praktiki cəhətdən düzgün müəyyən etmək vacibdir. Mövcud yanaşmaların öyrənilib ümumiləşdirilməsi əsasında innovasiya sahibkarlığının dinamik inkişafına təminat yarada bilən amillər aşağıdakı kimi qruplaşdırmaq olar: İqtisadi, texniki-texnoloji; Siyasi və hüquqi; Təşkilati və idarəetmə; Sosial-psixoloji və mədəni. Onların hər birinin təsir dərəcəsinin real təcrübədə nəzərə alınması innovativ sahibkarlıq üzrə mövcud boşluqların aradan qaldırılmasına imkan verə bilər. Qeyd edilən modellərin uğurlu icrası və amillərin tam təsnifatda nəzərə alınması üçün müvafiq mexanizmin işlənilməsi və tətbiqi zəruridir. Belə

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

mexanizmlərin təsnifatı və onların təmin edicilərinin strukturu tərəfimizdən tərtib edilən aşağıdakı şəkildə öz əksini tapmışdır.




Təklif edilən mexanizmlərin uğurlu icrası nəticəsində formalaşacaq innovasiya sahibkarlığının səviyyəsini qiymətləndirmək üçün sistem indikatorlardan istifadəyə üstünlük verilməsini məqsədəuyğun hesab edirik.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**İnnovasiya fəaliyyətinin indikatorları**

Sahibkarlıq subyektlərinin innovasiya fəaliyyətini qiymətləndirmək üçün tədqiqatçılar tərəfindən çoxsaylı indikatorlar tövsiyə edilir. Onların içərisində Rusiya Federasiyasının "Ali iqtisadi Məktəb" Milli Tədqiqat Universitetinin statistik ümumiləşdirmələri diqqəti cəlb edir. Həmin universitetin mütəxəssisləri innovasiya fəaliyyətinin 121 adda əsas göstəricilərini aşağıdakı yeddi qrup üzrə təsnifləşdirilər:

- Müəssisənin innovasiya aktivliyini əks etdirən göstəricilər;
- Texnoloji innovasiya göstəriciləri;
- Marketinq innovasiya göstəriciləri;
- Təşkilati innovasiya göstəriciləri;
- Ekoloji innovasiya göstəriciləri;
- Regionun innovasiya aktivliyini əks etdirən göstəricilər;
- İnnovasiya fəaliyyətinin beynəlxalq müqayisə göstəriciləri [9;10]

Həmin təsnifatda əks etdirilən göstəriciləri hesablamaq üçün böyük həcmdə baza statistik məlumatlarından istifadə etmək zərurəti yaranır və aparılan hesabat kollektiv əməyin nəticəsində mümkündür. Fərdi tədqiqatçı tərəfindən həmin göstəricilərin hesablanması və qiymətləndirilməsi uzun müddət tələb edir və sahibkar firmaların "kommersiya sirri" kontekstində mümkünsüzdür. Fikrimizcə, sahibkar firmaların innovasiya fəliyyətini qiymətləndirmək üçün daha çevik və asan yanaşmaya üstünlük verilməlidir. Hesab edirik ki, kiçik və orta ölçülü sahibkar firmaların innovasiya fəaliyyətini təhlil edib qiymətləndirmək üçün aşağıdakı qrup indikatorlardan istifadə etmək məqsədə uyğun olardı:

- innovasiya fəaliyyətinin iqtisadi aspektlərini özündə əfs etdirən məqsədli indikatorlar;
- innovasiyanın yenilik səviyyəsini xarakterizə edən indikatorlar;
- innovasiyanın təbiətini müəyyən edən indikatorlar;
- innovasiya fəaliyyətinin genişləndirilməsini əks etdirən indikatorlar;
- xərclərin səviyyəsinin qiymətləndirilməsi üçün seçilən indikatorlar;
- istehsal və innovasiya fəaliyyəti arasında korrelyasiya əlaqələrini əks etdirən indikatorlar.
- Əlbəttə, Kiçik və Orta ölçülü sahibkarlıq subyektlərində həmin indikatorları tam təsnifatda hesablamaq bir çox hallarda mümkün olmur. Ona görə də bu halda həmin qrup indikatorlar içərisindən məqsədli indikatorlar seçilib qiymətləndirilməlidir. İri həcmli sahibkar firmalarda layihələrin tətbiqi zamanı indikatorları tam təsnifatda hesablamaq daha çox ehtiyat imkanlarının aşkar edilməsinə şərait yaratmış olacaqdır.

**Nəticə**

Ölkəmizin emal sənayesində fəaliyyət göstərən kiçik və orta ölçülü sahibkar firmalarda məqalədə əks etdirilənm metodiki yanaşmadan və beynəlxalq təcrübədənm istifadə innovasiya sahibkarlığının təşkili üzrə mövcud boşluqların aradan qaldırılmasına imkan verə bilər. Fikrimizcə adı çəkilən sahənin alt sahələri üzrə klasterlərin, müştərək müəssisələrin yaradılması orada innovasiya aktivliyini gücləndirə bilər.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasında Kiçik və Orta Sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Bakı, 2016.
2. "Qeyri neft sektorunda rəqabət qabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 19 sentyabr 2018-ci il tarixli Sərəncamı Bakı, "Xalq" qəzeti, 20 sentyabr 2018-ci il.
3. Əliyev T.N. Bayram Yazar Azərbaycanın kimya sənayesində sahibkarlıq mühitinin formalaşması və davamlı inkişafının başlıca istiqamətləri Bakı, "Elm və bilik", 2017. .
4. Алиев Т.Н. Инновационное развитие промышленности Азербайджана М, 2016.
5. Кадакоева Г.В. Инновационное предпринимательство: сущность, технология и возможности развития в условиях российских реалий. //Вопросы инновационной экономики. М. 2014, том 4, № 2, с. 3-12
6. Иванов С.А. Галенко И.П. Инновационный потенциал предпринимательства, как фактор развития хозяйственной системы // Европейский международный журнал «Проблемы современной экономики» М, 2012, №1, с. 142-145
7. Наумов А.Ф., Захарова А.А. Инновационная деятельность предприятия М, ИНФРА-М, 2015, 256 с.
8. https://studbooks.net./762884
9. https://www.hse.ru>primarydata>il2018
10. https://www.hse.ru>primarydata>-2019


***Айтен Фарис кызы Абдуррахманова***

***Инновационное предпринимательство и системный подход к его оценке***

***Резюме***

*Встатье раскрываются условия для развития инновационного предпринимательства и на его основе системного подхода дается его уточненное определение; схематично изображены виды интеллектуального капитала; их поле деятельности, модели и механизмы инновационного предпринимательства, систематизированы индикаторы для оценки инновационной деятельности и предложены рекомендации по их рациональному использованию.*

***Ключевые слова:*** *инновационное предпринимательство, интеллектуальный капитал, модели, механизмы, индикаторы.*

***Ayten Faris gizi Abdurrahmanova***

***Summaru***

***Innovative Entrepreneurship and Systemicapproach to its assessment***

*The article reveals the conditions for the development of innovative entrepreneurship, and on its basis a systematic approach, its precise definition is given; types of intellectual capital are schematically depicted; their field of activity, models and mechanisms of innovative entrepreneurship, systematized indicators for assessing innovative activities and recommendations for their rational use.*

***Key words:*** *innovative entrepreneurship, intellectual* capital, models, mechanisms, indicators**.**

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 06.04.2020.***
***Çapa qəbul olunub: 13.04.2020.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*